**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TÜRKİYƏ CÜMHURİYYƏTİNDƏ QADIN RƏSSAMLARIN YARADICILIĞI

İxtisas: 6215.01 – Təsviri sənət

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Nilüfer Rasih qızı Erkan**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | sənətşünaslıq üzrə elmlər doktoru, professor<br>**Sevil Yusif qızı Sadıxova** |
| Rəsmi opponentlər: | Xalq rəssamı, professor<br>**Arif Şahbaz oğlu Hüseynov** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Emin Akif oğlu Ələkbərov** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Lalə Hamlet qızı Məmmədova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | Xalq rəssamı, professor<br>**Fuad Məmməd-Emin oğlu Salayev** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Xanım Zəlimxan qızı Əsgərova** |
| Elmi seminarın sədri: ____________ | Xalq rəssamı, professor<br>**Salxab İsa oğlu Məmmədov** |

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Tarix boyunca yaşadığı ictimai quruluşda ona verilən rollar arasında qalan qadın, varlığını təsdiqləmək yolunda onu məhdudlaşdıran ictimai öhdəliklərə baxmayaraq, əsas hüquqlarını əldə edə bilmək üçün mübarizə etmək məcburiyyətində qalmışdır. Qadınların ictimai statusu yaşadığı cəmiyyətin qaydalarına və mühakimələrinə görə dəyişmişdir. Cəmiyyətin cinslər arasında yaratdığı fərqliliklər və bioloji ayrılığın gətirdiyi çətinliklər onun üzərində güc tədqiq etmiş, dar və qeyri-bərabər çərçivənin içində qaldığından öz şəxsiyyətini təsdiq üçün uzun zamana ehtiyacı olmuşdur. İctimai quruluşun yaratdığı ayrı-seçkiliyə görə hər sahədə olduğu kimi qadınların incəsənət sahəsinə gəlişi də gecikmişdir.

Cümhuriyyət elan olunmazdan əvvəl qadının mövqeyi yaşadığı cəmiyyətin, hakimiyyətin gətirdiyi ictimai-siyasi vəziyyətlərə paralel olaraq dəyişikliyə məruz qalmışdır. Osmanlı dövlətinin son dövründə qadın hüquqları mövzusunda çox addımlar atılmış, avropalaşmanın gətirdiyi yeni həyat forması və düşüncə sistemi istiqamətində yaranan yeni anlayışlar qadının cəmiyyətdəki mövqeyinə müsbət təsir göstərmişdir. Avropalaşma incəsənətdə olan qadınlar üçün yeni bir dövrün qapılarını açmasıyla ictimai dəyişikliklərlə birlikdə qadınlar sənət sahəsində əsas yerlərini almışdılar. Qadın artık təsvir obyekti deyil, kətan qarşısında təsvir edən subyekte çevrildi.

Cümhuriyyətin elanına qədərki dövrlərdən başlayaraq günümüzədək bir-birindən fərqli və orijinal üslubları ilə seçilən qadın rəssamlar dövrümüzün çağdaş türk incəsənətinin aparıcı fəalları olmuşlar. Üslub formasının sərhədlərini aşan qadın rəssamlar günümüzə qədər fərqli üslublar vasitəsi ilə sənətə yeni baxış gətirmiş və yaradıcılıqları ilə müasir türk incəsənətinin inkişafında böyük rol oynamışlar. Qadın rəssamlar yaratdıqları sənət əsərlərilə özlərinin mühakimə və düşüncələrini əks etdirməklə paralel dəyər və sənət anlayışlarını da formalaşdırmışlar, eyni zamanda müəllifi olduqları bir çox əsərlərində qadın problemlərini qabartmışdılar. Şübhəsiz ki,

qadın olmaqları yaradıcılıqlarında həmcinslərinin problemlərini əks etdirmək üçün geniş şərait yaratmışdır.

Dövrümüzün qadın rəssamlarının yaradıcılığı hər keçən gün yeniliklər qazanmışdır. Cümhuriyyətin elanından dövrümüzə qədər olan müddətdə qadın rəssamların sənət xüsusiyyətlərinin, təsviri sənətə gətirdikləri yeniliklərin lazımı qədər tədqiq edilməməsi, müasir türk sənətinin inkişafı kontekstində yaradıcılıq üslublarının araşdırılması zamanı ciddi problemlər ortaya çıxarmışdır.

Türkiyədə qadın rəssamların yaradıcılığı çox müxtəlif və rəngarəngdir. Lakin bu fikirləri türkiyəli kişi rəssamlarına o qədər də aid etmək olmaz. Beləki, əksər qadın rəssamlarının yaratdığı əsərlər bir çox beynəlxalq sərgilərdə və qalereyalarda nümayiş etdirilərək mövzu və işlənmə texnikası baxımından tamaşaçı marağına səbəb olmuş və olmaqda da davam edir.

Beləliklə, əsaslı tədqiqata ehtiyacı olan, lakin uzun müddət elmi araşdırmalardan kənarda qalan müasir Türkiyə Cümhuriyyətinin qadın rəssamlarının yaradıcılığının hərtərəfli və dərindən öyrənilməsi sənətşünaslıq elmi üçün olduqca önəmli olaraq mühüm elmi əhəmiyyət kəsb edir.

Bugünədək müasir türk rəngkarlığına və qadın rəssamlarının yaradıcılığına dair Azərbaycanda olmasa da, Türkiyədə çoxsaylı kitab və kataloqlar nəşr edilmiş, ayrı-ayrı qadın rəssamlar haqqında mətbu orqanlarda sənətşünas tədqiqatına cəlb olunmuş müxtəlif məqalə və yazılar dərc edilmişdir. Lakin monoqrafik şəkildə Türkiyə Cümhuriyyətinin yaranmasına qədərki dövrlərdən müasir dövrümüzədək qadın rəssamlarının yaradıcılıq xüsusiyyətləri tədqiq edilməmişdir.

Nəşr edilmiş məqalə və yazılar, eləcə də internet saytlarında yerləşdirilmiş məlumatlar müasir Türkiyədə qadın rəssamların yaradıcılığına və onun mədəni prosesin inkişafında oynadığı rolla bağlı yeni maraqların yaranmasına səbəb olmuşdur.

Müasir Türkiyə rəngkarlığına və qadın rəssamların yaradıcılığını işıqlandıran olduqca çoxsaylı ədəbiyyat, kitablar, mətbu yazılar, ayrı-ayrı kataloqlar ancaq türk dilində dərc

edilmiş, Azərbaycan dilində mövzu ilə bağlı əsaslı monoqrafik elmi tədqiqat işi həyata keçirilməmişdir.

Türkiyə təsviri sənətini araşdıran Ali Akayın "Sanatın Sosyolojik Gözü"[1], Seda Bayındır Uluskanın "Atatürk'ün Sosyal ve Kültürel Politikaları"[2], Ayla Ersoyun "Günümüz Türk Resim Sanatı (1950 den 2000 e)"[3], Abdülkadir Günyazın "Leyla Gamsız"[4], Hasan Bülent Kahramanın "Türkiye'de Çağdaş Sanat"[5], Songül Keçeci Kurtun "Osmanlı Devletinde Kadın Eğitimi Harem'den Mektebe"[6], Nilüfer Öndinin "Gelenekten Moderne Türk Resmi Estetiği (1850-1950)"[7], Kaya Özsezginin "Cumhuriyet'in 75 Yılında Türk Resmi"[8], Burcu Pelvanoğlunun "Hale Asaf Türk Resim Sanatında Bir Dönüm Noktası" və "Pek Kronolojik Olmayan Hayatımız Türkiye'de Modernleşme ve Sanat"[9], Taha Torosun "İlk Kadın Ressamlarımız"[10], Mahinur Tunanın "İlk Kadın Ressam Mihri Rasim (Müşfik) Açba"[11],

---

[1] Akay, A. Sanatın Sosyolojik Gözü. / A.Akay. – İstanbul: Bağlam Yayınları, - 1999 – 297 s.

[2] Bayındır Uluskan, S. Ataürk'ün Sosyal ve Kültürel Politikaları / S.Bayındır Uluskan. – Ankara: Atatürk Araştırma Merkezi, – 2010 – 674 s.

[3] Ersoy, A. Günümüz Türk Resim Sanatı (1950 den 2000 e) / A.Ersoy.– İstanbul: Bilim Sanat Galerisi, – 1998 –192 s.

[4] Günyaz, A. Leyla Gamsız / A.Günyaz – İstanbul: Antik Sanat Galerisi Yayınları, – 2001 – 347 s.

[5] Kahraman, H.B. Türkiye'de Çağdaş Sanat / H.B.Kahraman. – İstanbul: Akbank Kültür ve Sanat Dizisi:80, – 2013– 431 s.

[6] Keçeci Kurt, S. Osmanlı Devletinde Kadın Eğitmi Harem'den Mektebe / S.Keçeci Kurt.– İzmir:Yitik Hazine Yayınları, – 2000 – 176 s.

[7] Öndin, N. Gelenekten Moderne Türk Resmi Estetiği (1850-1950) / N.Öndin – İstanbul: İnsancıl Yayınları, 109, – 2011– 176 s.

[8] Özsezgin, K. Cumhuriyet'in 75 Yılında Türk Resmi / K.Özsezgin – İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, –1999 – 158 s.

[9] Pelvanoğlu, B. Hale Asaf Türk Resim Sanatında Bir Dönüm Noktası / B.Pelvanoğlu. – İstanbul: Yapı Kredi Yayınları, – 2007 - 213 s.; Pek Kronolojik Olmayan Hayatımız Türkiye'de Modernleşme ve Sanat / B.Pelvanoğlu – İstanbul: Corpus Yayınları – 2017 - 294 s.

[10] Toros, T. İlk Kadın Ressamlarımız / T.Toros. – İstanbul:Ak Yayınları Sanat Kitapları Serisi:12, – 1988 – 86 s.

[11] Tuna, M. İlk Kadın Ressam Mihri Rasim (Müşfik) Açba / M. Tuna– İstanbul: As Yayınları.- 2007 – 112 s.

Ayşegül Yaramanın "Resmi Tarihten Kadın Tarihine"[12], Ayşe Nahide Yılmazın "1980 Sonrası Türkiye'de Sanat ve Siyaset"[13], Mehmet Yılmazın "Modernden Postmoderne Sanat"[14], Sezer Tansuğun "Türk Resminde Yeni Dönem"[15], adlı tədqiqatları və digərlərini sadalamaq olar ki, dissertasiyada da həmin qaynaqlardan köməkçi vasitə kimi istifadə edilmişdir.

Qadın rəssamların əsərləri və yaradıcılığı ilə bağlı yazılmış tədqiqat işləri yox deyiləcək dərəcədə azdır. Buna görə Cümhuriyyətin elanından dövrümüzə qədər Türkiyədəki incəsənət sahəsində mövcud olan qadın rəssamların yaradıcılığını təşkil edən əsas xüsusiyyətlər analiz edilərək müəyyən çərçivədə qiymətləndirilməyə çalışılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın tədqiqat obyektini Türkiyə Cümhuriyyətinin elanından müasir dövrümüzədək türk qadın rəssamlarının yaradıcılığının formalaşması, onların yaratdıqları əsərləri təşkil edir. Eyni zamanda İnas Sənaye Nəfisə məktəbinin qurulmasından öncəki dövrlərdə fəaliyyət göstərən qadın rəssamların yaradıcılığı da müəyyən qədər tədqiqat obyektinə daxil edilmişdir.

Tədqiqatın predmeti türk qadın rəssamlarının yaradıcılıq üslublarını, əsərlərinin bədii xüsusiyyətlərini, qərb cərəyanlarının rəssamların yaradıcılığında buraxdığı izləri və onların türk təsviri sənətinin inkişafına göstərdiyi təsiri aşkarlamaqdan ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Bu tədqiqatda müasir türk incəsənətinin inkişafına hər bir yaradıcılıqda mövcud olmuş estetik yanaşmanın zənginliyinin və dəyişkənliyinin necə təsir göstərdiyini izləmək, Cümhuriyyətin elanından dövrümüzə qədər qadın rəssamların təsviri incəsənətdə ortaya qoyduqları yeni

---

[12]Yaraman, A. Resmi Tarihten Kadın Tarihine / A. Yaraman– İstanbul: Bağlam Yayınları. – 2001 – 179 s.

[13]Yılmaz, A.N. 1980 Sonrası Türkiye'de Sanat ve Siyaset / A.N. Yılmaz –Ankara: Ütopya Yayınları: N:261- 2015 – 476 s.

[14]Yılmaz, M. Modernden Postmoderne Sanat / M.Yılmaz – Ankara: Ütopya Yayınları –2013 – 532 s.

[15]Tansuğ, S. / Türk Resminde Yeni Dönem / S.Tansuğ – İstanbul: Remzi Kitabevi – 1993 – 146 s.

formaları, üslublarındakı inkişafı və dəyişiklikləri tədqiq etmək məqsədi ortaya qoyulmuşdur. Bu məqsəddən irəli gələrək aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

1. Cümhuriyyətin elanından əvvəl İnas Sənaye Nəfisə məktəbi və daha sonra dövrümüzə qədərki müddətdə qadın rəssamların yaradıcılığındakı bədii üslubları və dövri xüsusiyyətləri tədqiq etmək;

2. Qadın rəssamların zaman keçdikcə dəyişən bədii düşüncələrini və üslub dəyişikliyini göstərmək üçün ən lazımlı nümunələri araşdırmaq;

3. Dissertasiyada Türkiyədə qadın rəssamlarının dövrün sosial-siyasi mühitinə bağlı yaratdıqları əsərlərində qadın vücudunun və qadın şəxsiyyətini fərqli biçimdə təqdim etmə üsullarını incələmək;

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsaslar kimi tarixi-bədii və milli-tarixi yanaşma üsullarına müraciət edilib. Türkiyə Cümhuriyyəti qadın rəssamlarının əsərlərinin xronoloji ardıcıllığına riayət olunmaqla tarixi-müqayisəli təhlil metoduna əsaslanaraq tədqiq edilmiş və əsərlərin bədii-üslubi təhlili çərçivəsində onların obrazlı və stilistik həllinin səviyyəsi müəyyənləşdirilmişdir.

Mövzu ilə əlaqədar yazılı mənbələr araşdırılıb tədqiq edilmiş, rəssamların əsərlərindən, müxtəlif muzeylərin internet saytlarından, incəsənət kitablarından, sənət jurnallarından, müxtəlif məqalələr və sərgi kataloqlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- 1828-ci ildən İstanbulda mətbəənin yayılması nəticəsində əlyazma kitabların tərtibatı üçün nəzərdə tutulmuş miniatür təsvirlər getdikcə azalmağa başladı;

- Türk rəssamlığında kubizmin təsirləri Hale Asaf yaradıcılığı ilə başlandı;

- Cümhuriyyət dövründə qadın rəssamların sayı çoxalmış, qadınlar sənətdə aktiv rol oynamışdılar;

- Qərbdə məhşur olan abstrakt təsvir ənənələri türk təsviri sənətinə Aliye Berger yaradıcılığı ilə gəlmişdir;

- 1950-ci illərdə türk qadın rəssamları Matiss və Modilyaninin yaradıcılığından təsirlənmişdir;

- Türkiyədə 12 mart 1971-ci ildə olmuş hərbi çevrilişdən sonra təsviri sənətdə konseptual və feminist tendensiyalar canlanmağa başladı;

- Kətan üzərində əsərlərdən başqa fərqli üslub və texnikalardan istifadə geniş vüsət aldı.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində Türkiyə Cümhuriyyətindəki qadın rəssamların yaradıcılığı mərhələlərlə təhlil edilmiş və yaradıcılıqları ilə bağlı aşağıdakı müddəalarda öz əksini tapmışdır.

- İnas (Qız) Sənaye Nəfisə məktəbinin əhəmiyyəti öyrənilmişdir;

- Qadın rəssamların yaradıcılığında Türkiyənin sosial-siyasi quruluşundakı inkişafın təsiri müəyyənləşdirilmişdir;

- Müasir dövrümüzə qədərki müddətdə qadın rəssamlar barəsində məlumata yiyələnmək, təsirləndikləri faktlar və kətan üzərindəki əsərləri ilə yanaşı, yaradıcılıqlarını rəsm, foto, video, qurama kimi növlərlə əks etdirdikləri müşahidə edilmişdir;

-Azərbaycan sənətşünaslığında ilk dəfə olaraq cümhuriyyətin elanına qədərki dövrdən bu günə qədər Türkiyədə qadın rəssamların yaradıcılıqlarının bədii xüsusiyyətlərinin araşdırılması tədqiqat obyektinə çevrilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Türkiyə incəsənətinin kökləri, təməl daşları və vizual sənət tarixinin mühüm problemlərinə diqqət yetirərək, qadın rəssamların yaradıcılığına vahid bir yanaşma məqsədi ilə bu tədqiqat türk sənət tarixində qadın rəssamların yaradıcılıqlarını anlamaq üçün ilham və istinad mənbəyi hesab edilə bilinər. Mövcud tədqiqat türk vizual sənət tarixini genişləndirmiş və Türkiyə Cümhuriyyəti qadın rəssamlarının yaradıcılıq rolunu, təsviri sənətin formalaşmasında onların yerini müəyyən etmişdir. Türkiyə Cümhuriyyətinin müasir qadın rəssamlarının yaradıcılığı ilə bağlı olan bu araşdırma və tədqiqat incəsənəti öyrənən və bu sahədə çalışan tələbələr üçün əhəmiyyətli mənbə ola bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin məzmunu, müddəa və nəticələri 10 elmi məqalədə yer almışdır. Mövzunu əhatə edən məruzələrlə müxtəlif yerli və xarici elmi konfranslarda çıxış edilmişdir. Dissertasiya işi sənətşünaslıq ixtisasına yiyələnən və təsviri sənət sahəsi üzrə təhsil alan tələbələrin tədrisi prosesində, elmi-tədqiqat işlərinin aparılması zamanı mənbə kimi istinad oluna bilinər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, altı paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. O cümlədən: Giriş – 9.996, 1.1. – 31.409, 1.2. – 30.129, 1.3. – 34.363, 2.1 – 32.345, 2.2. – 30.682, 2.3. – 33.676, Nəticə – 11.176 işarə olmaqla dissertasiyanın ümumi həcmi 215.612 işarədən ibarətdir. Tədqiqatın məzmununu əks etdirən illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

**Girişdə** mövzunun aktuallığı və işlənmə səviyyəsi, məqsəd və vəzifələri, obyekti və predmeti, müdafiəyə çıxarılan əsas müddəalar, eləcə də işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqqında məlumat verilir.

Dissertasiyanın **"İnas Sənaye Nəfisə məktəbinin yarandığı dövrdən 1980-ci illərə qədər fəaliyyət göstərən qadın rəssamların yaradıcılığı"** adlı I fəslin **"Türkiyə Cümhuriyyətinin yaranma dövrünə qədər qadın rəssamların yaradıcılıq xüsusiyyətləri"** adlı **1 paraqrafında** göstərilir ki, Türkiyədə incəsənət sahəsinə qadınların gəlişi XX əsrin başlanğıcına, Osmanlı dövlətinin süqutu dövrünə təsadüf edir. Qərbləşmə ilə birlikdə sosial və mədəni dəyişikliyin yaşanmağa başladığı Osmanlı dövlətindəki proses qadınların sənət sahəsinə ilk addımlarını atmasına gətirib çıxardı. Qadınların sənət sahəsinə gəlişi ictimai və

sosial-siyasi quruluş və onun yaşadığı proses baxımından əhəmiyyətli bir hadisə meydana gətirdi. Sosial münasibətlər və tənqid qaydaları dəyişdikcə, qadınların ictimai quruluşundakı mövqeyi də bu dəyişikliyin təsiri altında qaçılmaz olmuşdur.

Sənaye Nəfisə məktəbində yalnız kişilərin təhsil aldığını nəzərə alaraq, İnas (Qız) Sənaye Nəfisə məktəbi qurulmazdan əvvəl aldıqları xüsusi rəssamlıq dərsləri ilə dövrün sənət mühitində varlığını göstərən qadınların sayı yox deyiləcək qədər az olmuşdur. Dövrün zəngin və ziyalı ailələrinin qızları yaşadıqları ictimai vəziyyətdə rəssamlıq təhsili ala biləcəkləri bir məktəbin olmamasına görə rəssamlığı öyrənmək üçün xüsusi dərslər alaraq özlərini yetişdirmiş və bu sərgilərdə iştirak etmək şansını qazanmışdılar. İtalyan rəssam Fausto Zonarodan aldığı dərsləri daha sonrakı illərdə Roma və Parisdə davam etdirən Celile Hikmet (1883-1956), yenə ilk xüsusi rəssamlıq təhsilini saray rəssamı Fausto Zonarodan alaraq daha sonra Roma və Parisdə müxtəlif emalatxanalarda və sənət məktəblərində bu təhsilini davam etdirən Mihri Müşfik (1886-1954), İtalyan rəssamı Salvator Valeridən rəssamlıq təhsili alan Vildan Gizer (1889-1974), Osman Hamdi Bəy, Salvator Valeri və rəssam Xəlil paşadan xüsusi dərslər alan Müfide Kadri (1890-1912) Nazmi Ziya, Avni Lifij, Ruhi Arel və Feyhaman Durandan rəssamlıq təhsili alan Harika Sirel (1896-1991), Albert Milledən rəssamlıq təhsili aldıqdan sonra təhsilini Sürix İncəsənət məktəbində tamamlayan Emine Fuat Tugay (1897-1975), kimi qadın rəssamlar dövrün varlı və ziyalı ailələrinin qızları olmaq üstünlüyü ilə Qalatasaray sərgilərində iştirak etmişdilər.

Osmanlı dövlətində ilk rəsmi incəsənət məktəbi olan Sənaye Nəfisə məktəbindən sonra qadınlar üçün 13 oktaybr 1914-cü ildə İnas (Qız) Sənaye Nəfisə məktəbi təhsil verməyə başlamışdır. İnas Sənaye Nəfisə məktəbinin yaranması qadınların sənət təhsili alması istiqamətində çox mühüm bir addım sayılırdı, çünki bu məktəb Türkiyənin ilk qadın rəssamlarını yetişdirmişdir.

Dövrün ictimai quruluşunun formalaşdırdığı mühitdə portret, mənzərə, natürmort və nü kimi janrlar bu dövrdə çalışan qadın rəssamlarının yaradıcılığında əsas janrlar sayılırdı. Süjetli kompozisiyalara və portretə xüsusi önəm verilirdi. Dövrün ictimai-

siyasi şəraitinə əsaslanaraq portret əsərlərində adətən ailə üzvləri və ya doğma insanlar yer alırdı. Portretlərində özünü göstərən güclü texnika rəssamların peşəkar təhsillərindən xəbər verirdi. İnas Sənaye Nəfisə Məktəbi bu dövrdə sosial mühitin formalaşması ilə əlaqədar Qərb modelləri çərçivəsində həyata keçirdiyi sənət proqramına canlı çılpaq modeldə daxil etmiş və bu məktəbin həyata keçirdiyi təsviri sənət proqramında canlı çılpaq modeldən istifadə o vaxtkı şərtlərdə böyük və əhəmiyyətli dəyişikliyin göstəricisi idi. Nü əsərlərində qadın rəssamların dövrün ictimai baxışlarına görə məhdudiyyətlərlə qarşılaşırdı. Bu rəssamlar arasında Belkıs Mustafa, Celile Hikmet və Melek Celal Sofunun nü əsərləri dövrün digər qadın rəssamlarından daha çox üstünlük təşkil edir.

1927-ci ildə İncəsənət Akademiyası adı verilən təhsil ocağı 1983-cü ildə Memar Sinan Universitetinin İncəsənət fakültəsi kimi tanınmış və hal-hazırda bu ad altında fəaliyyət göstərir. Türk rəssamlıq və heykəltəraşlıq sahəsində qadınların da özlərini göstərməsi istiqamətində dönüş nöqtəsi hesab edilən bu məktəb türk rəssamlığının ilk qadın rəssamlarından Belkıs Mustafa, Güzin Duran, Nazlı Ecevit, Fahrelnissa Zeid kimi rəssamları yetişdirmişdir.

Qadın rəssamların yaratdığı əsərlərdə texnika, işləmə manerası və dəst-xətt baxımından oxşar və fərqli cəhətlər müşahidə olunur. Türkiyəli qadın rəssamlarının xarici rəssamlardan aldıqları fərdi dərslər nəticəsində Qərb yönümlü əsərlər meydana gəldi. Bu dövrdə qadın rəssamların əsərləri onların yaşadıqları dövrü təmsil etməklə yanaşı, həmin dövrün incəsənəti haqqında da məlumat verir.

Fəslin **“Türkiyə Cümhuriyyətinin elanından sonra (1925-1950) qadın rəssamların fəaliyyəti”** adlı **2 paraqrafında** qeyd olunur ki, 1923-cü ildə Türkiyə Cümhuriyyətin qurulması ilə cəmiyyətdə qadınların mövqeyində müsbət və əhəmiyyətli dəyişikliklər baş vermişdir. 1924-ci ildə təhsildə qəbul edilən Tövhidi Tədrisat qanunu və 1926-ci ildə isə Mədəni qanunun (vətəndaşların şəxsi münasibətləri, vəzifələri haqqındakı qanun) qəbulundan sonra qadınlara bərabərlik hüquqi verilmişdir. Daha sonra 1930-cu ildə bələdiyyə və 1934-ci ildə isə parlament

seçkilərində seçmə və seçilmə hüququ verilmişdir. Bununla da modernləşmənin simvolu olan qadınların Cümhuriyyət dövründə qəbul edilən qanunlarla ictimai sahədə iştirak etmək imkanı təmin edilmişdir. Cümhuriyyət dövründə bu cür tənzimləmələrlə atılan mühüm addımlar qadının cəmiyyətdəki statusunu dəyişdirmiş, qadınlara yeni sosial öhdəlik qazandırmışdır. Qadın Cümhuriyyətin elanından sonra demək olar ki, inqilabın simvoluna çevrilmişdir. İctimai və sosial həyata daxil edilmiş olan kadın yeni statusa və şəxsiyyətə qovuşmuşdur.

Cümhuriyyətin qurulmasından sonrakı prosesdə qadınların təhsil alma bərabərliyinin təmin edilməsi və incəsənət təhsili prosesində kişilərlə birlikdə iştirak etməsi mühüm bir amil idi. Cümhuriyyətin ilk illərində dövlətin həyata keçirdiyi sənət siyasətləri əsasında xaricə rəssamlıq təhsilinə göndərilən tələbələrin bu sahədə peşəkarca yetişməsi üçün Paris, Münhen kimi Avropada mövcud olan sənət mərkəzlərinə üstünlük verilmişdir. Dövlət tərəfindən Fransa və Almaniyaya göndərilən rəssamlar təhsilini Parisdə Andre Lhote və Münhendə Hans Hoffmanın kimi rəssamların emalatxanasında davam etdilər. Bu rəssamların yaradıcılığında həndəsi və abstrakt kompozisiya anlayışının qəbul etmələri ilə nəticələndi. Xaricdə təhsilini bitirdikdən sonra Türkiyəyə qayıdan rəssamlar Qərbdə qəbul edilən və geniş yayılan müasir sənət cərəyanlarının yaranmasında müstəsna rol oynamışdılar. Ona görə də Cümhuriyyət dövründə rəssamlıq sənətinin Qərb təsvir ənənələri əsasında inkişaf etdiyini görmək olar. Dəyişiklik prosesi əsərlərdə aydın görünməyə başladı və bu dəyişiklik dövrün qadın rəssamlarının əsərlərində də özünü biruzə vermişdir.

Qadının ictimai həyatda görünməsi həyat tərzinin dəyişməsinə səbəb olur və sənət əsərlərində qadın cəmiyyətin fəal üzvü kimi göstərilir. Bütün bu sənət əsərləri arasında ən mənalı əsər Melek Celal Sofunun (1896-1976), 1936-cı ildə çəkdiyi “Türkiyə Böyük Millət Məclisində qadın” əsəri olmuşdur.

Cümhuriyyətin birinci ilində dövlətin mədəniyyət və incəsənət siyasəti çərçivəsində Avropaya təhsil almaq üçün tələbə göndərilməsi məsələsi aktual olub, Avropada təhsil üçün 1924-ci

ildə təşkil olunan imtahanda uğur qazanan bir qrup gənc kişi rəssamları arasında tək qadın rəssam Hale Asaf olmuşdur (1905-1938). Hale Asaf  türk təsviri sənətinin inkişafında mühüm rol oynamışdır. O, fransız rəssamı Andre Lot (Andre Lhote) tərəfindən qəbul edilən ilk türk tələbə olub və türk rəssamlığında Andre Lotdan qaynaqlanan son kubizm təsirləri Hale Asaf yaradıcılığı ilə başlamışdır. Hale Asaf Andre Lotun yaradıcılıq üslubunu yamsılamamış, özünəməxsus forma dili yaratmışdır. Rəssam qısa sənət ömründə müəyyən mövzulara müraciət etmiş, avtoportretlərlə yanaşı ətrafındakı yaxın adamların portretləri, Bursa mənzərələri, öz evinin interyer təsvirlərini, yaşadığı mühitdən və öz bağından olan mənzərələrin təsvirinə üstünlük vermişdir.

Nü janrının daha çox mövzu kimi qəbul edildiyi bu dövrdə çılpaq qadın bədəni cinsiyyətdən azad bir obyekt kimi kətan üzərində əks olundu. Bu dövr müasir rəssamlığın fiqur formasını deformasiya edən bir anlayışa malikdir.

Fransız rəssamlarından təsirlənən qadın rəssamların əsərlərində yeni yanaşmalar görünməyə başladı. İstər mövzu və ifadə baxımından, istərsə də rəng, forma və səth əlaqəsi kontekstində yeni üslub yanaşmaları əsərlərdə görünməyə başladı.

Cümhuriyyətin elanından sonra mənzərə, portret, natürmort və nü janrları üstünlük təşkil ətməyə davam etmişdir. İkinci dünya müharibəsindən sonrakı dövr Türkiyə incəsənəti üçün dönüş nöqtəsi olmuşdur. Avropa və Amerikada müharibədən sonra incəsənətdə hakim mövqe tutan abstrakt təsvir üslubu türk incəsənətinə də təsir göstərmişdir. Türkiyədə 1930-cu illərdə impressionizm və kubizm kimi iki cərəyan ətrafında inkişaf edən rəssamlıq sənəti 1950-ci illərdə azad axtarışlarla nəzərə çarpır. Türkiyədəki ictimai-siyasi dəyişikliyin incəsənətdə də baş verməsi türk rəssamlığında yeni dövrün yaranmasına şərait yaratmışdır. 1950-ci illərə qədər abstrakt rəngkarlıq ənənəsi vüsat almadı, mövzu seçimi məhdud idi.

Fəslin **"1950-80-cı illərdə türk qadın rəssamlarının yaradıcılığı"** adlı **3 paraqrafında** qeyd olunur ki, 1950-ci ildən

sonra türk rəssamlığında qadın rəssamlar Qərblə eyni vaxtda və bərabər hüquqlu münasibət qurmağa müvəffəq oldular. Bu xüsusilə “Paris məktəbi” və ya “Paris abstraksionistləri” kimi tanınan rəssamlar vasitəsilə mümkün olmuşdur.

Cümhuriyyət dövrü ilə birlikdə inkişafı sürətlənən türk incəsənətində 1950-1960-cı illərdə yerli mövzularda və motivlərdə yenilik və orijinallıq axtarılırdı. Rəssamların əsərlərində yerli meyllərin təsiri görünməyə başlandığı bu dövrdə bir çox rəssam Anadolunun mədəni zənginliyindən ilhamlanmışdır. Bu rəssamlardan biri də Eren Eyüboğludur (1907-1988). “D qrupu”nun üzvü olan rəssam, Anadolu mədəniyyətinin bütün rənglərini, ənənəvi motivlərini, xalqını və ənənəvi həyatını əsərlərində müasir xətlərlə şərh etmişdir. Əsərlərində gündəlik həyat səhnələri, qadın və xalq motivləri kimi Anadolunun zəngin mədəni həyatının təsviri üstünlük təşkil edir.

Anadolu xalqını və xüsusilə də Anadolu qadınlarını bu coğrafiyanın zəngin rəngləri, motivləri formal cizgiləri və simvolları ilə öz əsərlərinə daşımışdır. Eren Eyüboğlu yaradıcılığı ilə müqayisə olaraq Azərbaycanın görkəmli qadın rəssamlarından Maral Rəhmanzadənin (1916-2008) və Vəcihə Səmədova (1924-1965), yaşadıqları coğrafıyanın ənənəvi həyatını və qadınlarını ənənəvi geyimlərində təsvir etdikləri əsərləri nümunə çəkmək olar.

Eren Eyüboğlunun əsərlərinə daşıdığı Anadolu qadınını Vəcihə Səmədovanın 1961-ci il tarixli “Türk qadınları” və 1962-ci il tarixli “Türk qadını” adlı əsərlərində də görmək olar. Vəcihə Səmədova Anadolu qadınlarını ənənəvi geyimlərində əks etdirib. 1957-ci il tarixli “Lənkəranda toy” və 1961-ci il tarixli “Lənkəranlı qızlar” adlı əsərləri Vəcihə Səmədovanın yaşadığı coğrafıyanın ənənəvi həyatından bəhs edən əsərlərindən bəziləri olmuşdur. Eren Eyüboğlunun əsərləri ilə Vəcihə Səmədovanın əsərlərinin mövzu baxımdan oxşarlığı xüsusi diqqət çəkir. Eren Eyüboğlunun əsərlərindəki ənənəvi həyat və mədəniyyət ünsürləri ilə Maral Rəhmanzadənin (1916-2008) linoqravür texnikası ilə çəkdiyi qrafik əsərlərində olan oxşar cəhətlər hər iki

rəssam yaşadıqları coğrafiyanın mədəni izlərini rəng və formaları ilə yaradıcılıqlarında mühüm simvol kimi önə çıxarmış, öz sənət üslubları ilə əks etdirmişlər.

Rəssam Bedri Rahmi Eyüboğlunun tələbəsi olan Leyla Gamsız (1921-2010) 1946-cı ilde akademiyada tələbəlik illərində dostları ilə birlikdə "On"lar qrupunu yaratmışdır. Matissin təsirinin aydın hiss olunduğu rəssam Leyla Gamsız 1940-1960-cı illər arasında çəkdiyi əsərlərində 1950-ci illərdə ənənəvi təsvir formaları ilə yenə mücərrəd axtarışlara yönəlmişdir. Mücərrəd axtarışlar 1960-cı illərə doğru sürətlənmiş, 1970-ci illərdə isə rəssamın yaradıcılığındakı mücərrəd dövrü artan bir surətlə davam etmişdir. Rəssam 1960-1980-ci illər arasında abstrakt mənzərələrə daha çox üstünlük vermişdir. 1980-ci ildən sonrakı əsərlərində tək və qrup halında qadın fiqurlarının təsvirinə yönəlmişdir.

Əvvəlki dövrlərdə rəssamlar tərəfindən geniş formada istifadə olunmuş İstanbul mövzusu Cümhuriyyət dövründə də təsviri sənətin əsas mövzusu olaraq davam etmişdir. İstanbul mənzərələri bu dövrün görkəmli qadın rəssamlarından Naile Akıncının (1923-2014) yaradıcılığının əsas mövzusu olmuşdur. Haliç təpələri, Eyüp və Marmaradan seçdiyi mənzərələr rəssamın kətanında fərqli, özünə xas mənzərələr kimi yer almışdır. Güclü vizuallığı ilə təsiredici bir xüsusiyyətə sahib olan İstanbul və rayonları Naile Akıncının əsərlərində önəmli və dəyişməz motiv kimi qorunub salanılmışdır.

Qadın rəssamların yaradıcılığında yeni ifadə və forma axtarışları 1960-1970-ci illərdəki əsərlərində əks olunmağa başlamışdır. Aktiv mücərrəd sənətə alternativ olaraq Neşe Erdok yaradıcılığı da daxil olmaqla rəssamlar fiqurativ ifadəyə yönələrək sosial tənqidi münasibətini rəsmlərində əks etdirmişlər. 1970-ci ildən sonrakı dövrdə fiqurativ sənət sürət qazanmış, fiqur həm mənəvi, həm də fiziki məhfumların təsviri üçün başlıca vasitələrdən biri olmuşdur. Neşe Erdok (1940) həyatdan götürülmüş gündəlik səhnələrin yer aldığı əsərlərində insanları yaşadıqları mühitdə və sosial şəraitdə təsvir etmişdir. Atatürk və Qurtuluş Savaşı muzeyinin tərtib edilməsində rus və azərbaycanlı

rəssamlardan ibarət olan qrupa rəhbərlik edərək iki ölkə arasında mədəni və sənət əlaqələri sahəsində əməkdaşlığın sıxlığını göstərən dünyaca məşhur Azərbaycanın ən görkəmli rəssamlarından biri olan Tahir Salahovun (1928-2021) 1957-ci il tarixli "Növbə bitdi", 1957-ci il tarixli "Xəzərdə", 1960-cı il tarixli "Təmirçilər", 1967-ci il tarixli "Abşeron qadınları" adlı əsərlərində olduğu kimi Neşe Erdokun 1981-ci il tarixli "Qızıltorpaq stansiyası", 1982-ci il tarixli "Şəhərətrafı qatar", 1986-cı il tarixli "Dayanacaq" adlı əsərləri də daxil olmaqla, bir çox əsərində yaşamaq üçün mübarizə aparan cəmiyyətin aşağı təbəqələrinə aid insanları təsvir etmişdir. Sosialist realizmi istiqamətində çəkən Tahir Salahov kimi Neşe Erdokun da əsərlərinin əsas mövzusu cəmiyyətin zəhmətkeş insanlarının təsvirləridir. Hər iki rəssamın əsərlərində diqqət çəkən amil obrazlı və ifadəli üslubi dildən istifadəsi və fiqurların ifadəli təsvir dilində güclü vizuallıqla təsvir etməsindədir. Onlar əsərlərində insanları gündəlik həyatda, çətin həyat şəratində yaşamaq uğrunda mübarizəsini yaşadıqları dövrün sosial-ictimai prizmasından sosial realist üslubda əks etdiriblər. Sosial faktlar və dəyərlər sənət əsərlərinin mühüm elementləri kimi yer almışdır.

Bütövlükdə, bu dövrdə qadın rəssamların sənət fəaliyyətində iştirakı genişlənmiş, əsərlərində üslub və düşüncə baxımından dəyişikliklər və çevrilmələr meydana çıxmış, Akademik bünövrəyə əsaslanan klassik üslubdan və estetik anlayışdan kənara çıxan əsərlər meydana gəlmişdir. Sosial məsələlər və qadın konsepsiyalarını əsərlərinə daxil etmiş rəssamlar bu mövzuda öncül olmuşlar. Dövrün qadın rəssam nəsli əvvəlki nəsillərdən fərqli olaraq Türk təsviri sənətinin mövzu müxtəlifliyinə öz töhvəsini vermişlər.

Dissertasiyanın **"XX əsrin 80-ci illərindən dövrümüzə qədər müasir türk təsviri sənətində qadın rəssamların yaradıcılığı"** adlı **II fəslin "1980-ci illərdə müasir türk təsviri sənətində qadın rəssamların yeri"** adlı **1 paraqrafda** Türkiyədə 1980-ci illərdən etibarən qadın rəssamların yaradıcılıqlarında siyasi bir dərinliklə yanaşı fərdi problemlərin

dərinliyinin də mövcud olduğu dövr işıqlandırılır. Bu dövrün qadın rəssamlarının əsərlərində qadın məsələləri şüurlu şəkildə öz əksini tapmışdır. Türkiyə incəsənət mühitində böyük dəyişikliyin baş verdiyi 1980-ci illərlə birlikdə yeni qadın rəssamların adları da aktual olmuşdur. Bu illərdə bir qrup qadın rəssamı ənənəvi təsvir üslubunun tamamilə kənarına çıxmış, fərqli əsərlər meydana gətirmiş, onların əsərlərinin mövzuları və bədii üslubları yaşadıqları ictimai quruluşdan qidalanmışdır.

Əsərlərində eramızdan əvvəl qadın obrazına yüklənən mənaları təhlil edən, qadın obrazlarının həm sosial baxımdan, həm də qadının keçmişini əks etdirən Tomur Atagök (1939) və qadının əşyalaşdırılmasını rəsmlərində mövzu kimi istifadə edən Nur Koçak (1941), cəmiyyətdə sürətli sosial, mədəni dəyişikliyin baş verməsinə səbəb olan insanın bir məkandan digərinə köçünü əks etdirən və köçün cəmiyyətdə yaratdığı dəyişikliyi yaradıcılığının mərkəzinə yerləşdirən, şəxsiyyət və köç problemlərinə toxunan əsərləri ilə Gülsün Karamustafa (1946), əsərlərində daha çox sosial və siyasi mövzulu əsərləri vasitəsi ilə cəmiyyəti tənqid edən Canan Beykal (1948), kimi dövrün qabaqcıl rəssamları Türkiyə incəsənət mühitininə əhəmiyyətli yeniliklər gətirmişlər. Bu dövrün qadın rəssamları Türk təsviri sənətinə yeni və zəngin müxtəlif mövzu və baxış bucağı gətirmişdir. Mənzərə, portret, nü, natürmort janrında olan əsərlər yerini daha çox sosial və ictimai məsələlərə həsr olunmuş əsərlərə verdi.

1980-ci illərdə incəsənətlə məşqul olan qadın rəssamlar cəmiyyətdə yaşanan problemləri yaradıclıqlarında əks etdirib üzə çıxararkən şüurlu bədii üslub nümayiş etdirdilər. Cəmiyyətdə yaşanan sosial və siyasi problemlərlə yanaşı öz problemlərini də əsərlərində əks etdirərkən dolayısı ilə kişilərin üstünlük təşkil etdiyi cəmiyyəti tənqid ediblər.

Fəslin **“1990-2000-ci illərdə qadın rəssamların yaradıcılığında yeni üslub zənginliyi”** adlı **2 paraqrafında** göstərilir ki, Türkiyənin təsviri sənət üslubunun formalaşaraq çeşidlilik qazandığı 1990-cı illərdə müasir təsviri sənətdən gündəlik sənətə keçidin əhəmiyyət qazandığı dövr olmuşdur.

Rəngkarlıq, və heykəltəraşlıq kimi ənənəvi plastik incəsənət düşüncəsi yerini qurama və performans kimi vizual incəsənət anlayışına verməyə başlamışdır. Əhatə dairəsi genişlənən incəsənətdə forma və estetika əhəmiyyətini itirmiş, məzmun, məna və fikir önə çıxmışdır. Türkiyədə incəsənət mühitindəki dəyişiklikdə yaşanan çeşidlilik ancaq eyni üslubla qalmayaraq, qadın rəssamların istifadə etdikləri texnikada da özlərini göstərmişdilər. Bu dövrdə rəsm və heykəl kimi ənənəvi ifadə formaları və vasitələri ilə yanaşı texnoloji vasitələrin də istifadə olunduğu forma dəyişikliyi baş vermişdir. İncəsənət məzmununda mesaj vermək kimi anlayışları ehtiva edən intellektual bir prosesə qədəm qoydu. Yeni bir anlayışın hakim olduğu bu dövrdə təhlil və tənqidi düşünən qadın rəssamlar tərəfindən formalaşdırılan sənət nümunələri bir çox fərqli konteksdə müxtəliflik qazanmağa başlamışdır. Hər rəssam yaradıcılığında özünəxas tərzdə material və texnikadan istifadə etmişdir. Bu dövr qadın rəssamlarının əsərlərində müasir incəsənət üslubunu ifadə vasitəsi kimi istifadə etməyə başladığı bir dövr olmuşdur. Sənət əsərləri dövrün ictimai quruluşuna, siyasi dəyişikliklərinə, iqtisadi şərtlərinə və məhdudiyyətlərinə qarşı duraraq inkişaf etmişdir. Sürətlə inkişaf edən sənaye və texnikanın inkişafından mənfi təsirlənən mühit və təbiət də rəssamların əsərlərində müraciət etdikləri mövzular arasında idi. Sənayeləşmə ilə birlikdə təbiətin zamanla dəyişikliyi, sənayeləşmənin təbiətdə yaratdığı mənfi təsirləri bu dövrün rəssamlarından Canan Tolonun yaradıcılığının əsas mövzusunu təşkil etmişdir. Təbiəti yaradıcılıq vasitəsi kimi istifadə edən Canan Tolon (1955), siyasi təsirlərə məruz qalan dünyada təbiətin kirlənməsini, təhlükənin narahatedici tərəflərini özünəxas tənqidi formada əks etdirmişdir. Sənaye vasitələrinin, havanı kirləndirən fabrik bacalarının getdikcə məhv etdiyi təbiət Canan Tolonun rəsm və instalyasilarında güclü tənqidi mesajın əsas hissəsi olmuşdur. Cümhuriyyət dövrü rəssamlarından Sabiha Rüştü Bozcalı (1904-1998) Zonguldak şəhərinin sənayə inkişafına diqqət yetirərək, şəhərin fabriklərini və elektrik

stansiyalarını öz kətanına gətirdi ki, bu da gənc Türkiyə Cümhuriyyətinin inkişaf layihəsinin vizual rəsmi olmuşdur.

Sənayə mənzərələri Azərbaycanın da görkəmli rəssamlarının maraq və rəsm mövzusuna çevrilmişdir. Bu cür mənzərələr Tağı Tağıyevin (1917-1993) 1950-ci ildəki "Sənayə mənzərəsi", Mahmud Tağıyevin (1923-2001) 1969-cu ildəki "Axşam Bakı", adlı yağlı boya ilə çəkilmiş əsərlərində rast gəlinir.

Sənaye mənzərələri Maral Rəhmanzadənin (1916-2008) yaradıcılığında əsas mövzulardan biri olmuşdur. Rəssam Azərbaycanın sənayə mənzərələrini kömür, yağlı boya və linoqravür texnikası ilə təsvir etmişdir. Canan Tolonun əsərlərindəki sənayə mənzərələri Tağı Tağıyev, Mahmud Tağıyev və Maral Rəhmanzadənin sənayə mənzərələri ilə oxşar xüsusiyyətlərə malikdir. Hər bir rəssam öz dövrünün sənayə mənzərələrini əsərində fərqli şəkildə işləmişdir. Canan Tolonun 2005-ci il tarixli "Yolunda hər şey" və eyni tarixdə çəkdiyi "Yolunda hər şey nömrə 7" əsərlərindəki qara, ağ və boz rəngdə işlədiyi sənayə mənzərələrində mesaj fərqli olmuşdur. Rəssam bacalardan çıxan tüstünün təbiəti necə çirkləndirdiyini göstərmək üçün əsərlərində qara, ağ və boz rənglərin istifadəsinə üstünlük vermişdir. Maral Rəhmanzadə də sənayə mənzərələrini rəsmlərində və linoqravürlərində özünəxas əks etdirmiş, rəngdən istifadə etməmişdir. Canan Tolonun sənayə mənzərələri ilə işləməsi rəsmlərində və xüsusən də instalyasiyalarında daha dərin və fərqli məna zənginliyində olmuşdur.

1990-cı illərdə qabaqcıl rəssamlardan İnci Eviner (1956) əsərlərini bədən-şəxsiyyət-ərazi fikrindən yola çıxararaq formalaşdırmışdır. 1995-ci il tarixli "Gövdə ərazisi", 2009-cu il tarixli "Hərəm" və 2010-cu il tarixli "Qızlar Avropada" kimi əsərlərində qadın mövzusu problematikasına əhəmiyyətli bir baxış bucağı yaratmışdır. Coğrafıya seriyasından olan "Gövdə coğrafiyası" (1995) adlı əsərində rəssam tarixi daşıyıcı kimi coğrafiyanı insan gövdəsi ilə birləşdirmişdir. İnci Eviner video texnikası ilə reallaşdırdığı 2010-cu il tarixli "Qızlar Avropada" adlı əsərində video və rəsmi birləşdirərək təsvir üslubuna yeni

istiqamət qazandırmışdır. Əsərlərində bəzən siyasi və ya sosial bir məhfumu təhlil edən rəssamın 2010-cu ildə hazırladığı "Qırıq manifestlər" adlı video yerləşdirməsi isə "Köçkünlər", "Şiddət" və "Tədbir" adlı üç hissədən ibarət olmuşdur.

Bu dövrün qadın rəssamlarının əsərlərinə zəngin və sərhədsiz bir vizual üslub üstünlük təşkil edir, hər bir rəssam öz yaradıcılığına uyğun material və texnika tətbiq etmişdir. Dövrün qabaqcıl rəssamlarından biri də Selma Gürbüz (1960-2021) olmuşdur. O, rəsmlərində Şərq və Qərbin mədəni dəyərlərini birləşdirərək öz etnoqrafiyasını və mifologiyasını yaratmışdır. Şərq və Qərb kimi iki fərqli ərazinin nağıl və əfsanələrini öz yaratdığı mifoloji təsvirlərlə nağılvari bir ifadə çərçivəsində əks etdirmiş, yaratdığı simvolik obrazları əsərlərində göstərməyə çalışmışdır.

Beləliklə, dövrün rəssamlarının yaradıcılıqlarını yaşadıqları dövrün sosial, mədəni, iqtisadi və siyasi perspektivinin gətirdiyi hallar yaratmışdır. Zamanla mədəni, sosial, siyasi və iqtisadi təsirlərlə formalaşmışdır. Qloballaşan incəsənət anlayışı ilə yanaşı sənətlərinin mövzusu və üslubu dəyişmişdir. Sənətə qoyulan məhdudiyyət və qadağaların aradan qaldırılması ilə rəssamlıq sənətinin vahid monoton inkişafı başa çatdı, sənətdə yeni və orijinal ifadə üslubları yarandı. Kətan üzərində işləmədən kənara çıxaraq müxtəlif fərqli materiallarla və fərqli baxış bucağıyla müasir sənət əsərləri meydana gəlmişdir. Sənətləri daha çox cəmiyyətə olan sorğu-sual və zamana tənqidi münasibət əsasında qurulmuşdur.

Fəslin **"2000-ci ildən müasir dövrə qədər qadın rəssamların yaradıcılığında mövzu müxtəlifliyi"** adlı **3 paraqrafında** qeyd olunur ki, 2000-ci ildən dövrümüzə qədər incəsənət mühitində çoxşaxəli ifadə vasitələrinin zənginləşməsi ilə birlikdə qadın rəssamlar müasir incəsənət sahəsində fərqli konseptlər vasitəsi ilə öz yaradıcılıqlarını formalaşdırmışlar. Əsərlərində mədəniyyət, tarix, təbiət, dəyişən mühit, ictimai quruluşda qadın şəxsiyyəti, köç, incəsənət tarixinə aid ikonoqrafiya, mifologiya, din, sosial cinsiyyət, şiddət, varlıq şəraiti və müharibə kimi bir çox sosial hadisə qabarmağa

başlanmışdır. Beləliklə, sənətlərində rəngkarlıqla yanaşı müxtəlif, fərqli texnikaların da istifadə edildiyi, estetikadan çox konsepsiyaya əsaslanan bir sənət anlayışı özünü göstərməyə başlamışdır.

Türkiyədə sayı getdikcə artan qadın rəssamlar müasir incəsənətə üz tutur və  təsvir ifadələrini yaşanılan dövrün gətirdiyi texnoloji imkanlardan istifadə edərək yaratmışdırlar. Foto, video, performans, qurama, kollaj, parça, tikiş kimi fərqli müxtəlif materiallardan ibarət müasir incəsənət fərqli yerlərdə reallaşdırılmışdır. İncəsənət mühitində beynəlxalq bienalların, yarmarkaların, qalereyaların və sərgilərin xeyli artdığı bir dövr başlamışdır. Dünyada incəsənətin inkişaf etdiyi və fəaliyyətlərin artdığı bu dövrdə yeni nəsil gənc qadın rəssamların bəziləri incəsənət əsərlərini kətan üzərinə boyama kimi ənənəvi metodlardan istiqamət götürərək və dəyişdirərək izləyiciyə təqdim etmiş, bəziləri isə əsərlərində fərqli materiallar tətbiq etməklə yenilikçi bir üslubdan istifadə etmişdir.

Şəxsiyyət və cəmiyyətdəki cins məsələsini əsərləri vasitəsi ilə təhlil edən Canan Şenol (1970), 2000-ci il tarixli “Kibela” adlı əsərini bərəkəti, bolluğu və gücü təmsil edən ana ilahə obrazından istiqamət götürərək yaratmışdır. Rəssam bu əsərində də yenə öz çılpaq bədənindən istifadə etmişdir. Sənət əsərlərində Osmanlı miniatürlərinə də müracet etmiş, öz çılpaq bədənini miniatürlərdə də istifadə etmişdir. 1999-cu ildə yaratdığı miniatürlərdə XVIII əsrdə yaşamış miniatür rəssamları Abdullah Buhari və Levninin miniatürlərindən parçalar mövcud olmuşdur. Osmanlı miniatürünün nağılvari üslubundan istifadə edərək hazırladığı əsərlərində kağızlar ilə qızıl və rəngli mürəkkəbdən istifadə etmişdir. Osmanlı miniatürlərindən aldığı ənənəvi formaları gündəlik məsələlərə daxil edib təhlil etmişdir.

Əsərləri ilə feminist yanaşma edən, ifadə vasitəsi kimi öz çılpaq bədənini əsərlərində əsas material kimi istifadə edən və bədəni vasitəsi ilə qadın şəxsiyyətini təhlil edən Canan Şenolun əsərlərində mifoloji elementlər də öz mənaları və simvolik ifadələri ilə yer tutmuşdur. 2011-ci ildə hazırladığı “Şahmaran” adlı əsərində isə Mesopotamiya mədəniyyətlərinin ortaq motivi,

bir növ irsi olan və Anadolunun müxtəlif bölgələrində fərqli hekayə üslublarına malik olan Şahmeran hekayəsinə əsaslanaraq, bu universal hekayəni öz bədii dili ilə şərh etmişdir.

Gözəlliyinə görə təhlükə altında olan və zorakılığa məruz qalan canlıların fəciəvi hekayəsini təsvir edən rəssam Necla Rüzgar (1972), simvollarla işləyən və simvollara yeni mənalar yükləyən, eşq, həyat, ölüm kimi mövzulara daha praqmatik yanaşan Leyla Gediz (1974), qadınların şəxsiyyətini ön plana çəkən, qadınların cəmiyyətdəki yeri, qadın-ev-məişət arasındakı münasibət kimi sosial mövzulara toxunan Nilbar Güreş (1977), Türkiyədə incəsənətin müasirləşməsi mərhələsində şübhəsiz ki, əhəmiyyətli rol oynamışlar.

Təbii dünya ilə insanın yaratdığı dağıntılar nəticəsində yaranan mənzərəni zəngin faktura ilə rəsmlərində əks etdirən Burcu Perçinin (1979), əsərlərində istehlak cəmiyyətin ideal formada təqdim edilənləri təhlil edən Nur Gürelin (1980), parça, tikiş və boya texnikası ilə hazırladığı və sosial mövzulara daha çox yer verən, əsərlərində material kimi iynə və sapdan istifadə edən Gözde İlkinin (1981) yaradıcılığında izləmək olar. Təbii boyalarla rəngləyib soldurduğu incə parçaların üzərinə tikişlə etdiyi işlərində cinsiyyətlər arası münasibətlərdən bəhs edən Güneş Terkol (1981), əsərlərində təbiət və qadının məruz qaldığı hücum və istismarı vurğulayan Elif Aydemir (1990), əsərlərində insanın təbiətlə əlaqəsini, təbiətlə qurduğu bağı həssas bir yanaşma ilə işləyib təsvir edən Cansu Kahraman (1991) kimi qabaqcıl rəssamlar da yeni mövzular və alternativ materiallarla hazırladıqları sənət əsərləri ilə 1980-ci ildən dövrümüzə qədər Türkiyə incəsənətində əhəmiyyətli yer tutmuşlar.

Hazırda Türkiyədə müxtəlif mövzu və texnika ilə sənət əsərləri yaradan qadın rəssamlar var ki, onların sənətinin əsas gücü yaradıcılıq üçün heç bir məhdudiyyətin olmamasından irəli gəlir. Türkiyədə qadın rəssamlar öz yaradıcılıqları ilə həyatda mövcud olan təfərruatları göstərmiş, sorğulamış və tənqid etmişlər. Natürmort, peyzaj, nü kimi klassik təsvir anlayışından çox şaxəliliyə doğru keçidin mövcud olduğu, incəsənət baxımından material və texnika kimi fərqli sənət formalarını

birlikdə gördüyümüz dövrümüzdəki müasir incəsənətdə qadın rəssamların əsərlərinin düşüncə gücü ön plana çıxmışdır. Bu gün Türkiyədə müasir incəsənət mühitində yaşanılan dövrə paralel əsərlər ortaya qoyan qadın rəssamlar kətan boyamaqdan daha da irəli gədən əsərlər yaratmışlar.

Estetikadan çox düşüncə hakim olduğu müasir təsviri sənətdə dövrümüzdəki gündəlik həyatda rastlaşan əşyalardan istifadə edirdilər. İstifadə etdikləri hər bir materialın isə özünə görə fərqli bir üslubu olmuşdur. Hər material və texnika ilə forma dəyişdirən ifadə tərzi və incəsənət baxımından olan yanaşma ilə şübhəsiz ki, incəsənət mühitini vacib formada genişləndirmişdir.

Dünya dəyişir və yeni dövrün astanasında dayanır. Buna uyğun olaraq, hər sahədə olduğu kimi sənət sahəsində də qadın rəssamlar bu dəyişiklikdən və çevrilmədən təsirlənir və qidalanır. Türkiyə Cümhuriyyətində qadın rəssamlar sənətin sərhədlərini genişləndirdi, onlardan sonra gələcək yeni nəsil gənc qadın rəssamlar üçün geniş çərçivədə zəngin və rəngarəng vizual irs yaratmışdır.

**Nəticədə** tədqiqatda aşağıdakı qənaətlər əldə olunmuşdur:

–Osmanlı dövlətinin ən çətin iqtisadi, siyasi və sosial illərini yaşadığı dövr incəsənət baxımından Türkiyə tarixində əhəmiyyətli izlər buraxmışdır;

–XIX əsrdə Tənzimat fərmanının gətirdiyi yeni nizamla İnas Sənayə Nəfisə Məktəbinin qurulması ilə birlikdə qadınların sənət səhəsində irəliləməsi əhəmiyyətli bir addım olmuşdur;

–Türkiyə Cümhuriyyətinin qurulması və yeni qurulan cümhuriyyətin bir çox islahat hərəkatı çərçivəsində sənət təhsilində imkan bərabərliyinin təmin edilməsi qadınlar üçün əhəmiyyətli qazanclardan birini təşkil etmişdir;

–Osmanlı dövründə sayca az olan və Türkiyə Cümhuriyyətinin qurulmasından sonra sayı artan qadın rəssamlar Türkiyədə sənət sahəsində daha çox varlıq və yaradıcılıq göstərə bilmişlər;

–Osmanlı dövründə portret, mənzərə və nü kimi janrlar ilə başlayan ilk sənət uğurlarından 1980-ci illərə qədər qadın rəssamların yaradıcılığında diqqəti çəkən bir üslub, mövzularda

gözə çarpan müxtəliflik və zənginlik özünü göstərməyə başlamışdır. Xüsusilə 1950-1980-ci illər arasında onların yaradıcılığında müxtəlif konsepsiyaların və mövzuların ilk nümunələrini göstərməyə başlamışdır;

–1980-ci illərin yeni nəsil qadın rəssamlarının yaradıcılıqlarının formalaşmasında bu dövrə iz qoymuş qadın rəssamların yaradıcılığı mühüm və həlledici olmuşdur;

–qadın rəssamlar 1980-ci illərdə yaradıcılıqları ilə sənət səhəsində yeni bir sənət dili yaratmış və Türkiyə təsviri sənətinə mümkün olduğu qədər intellektual fıkir-töhfə vermişlər;

–1980-ci illərdən bu günə davam edən prosesdə incəsənətin mərkəzinə sosial və siyasi mövzuları götürdülər, kətan üzərində rəngkarlığının məntiqini pozan, dinamizmi, rəngarəngliyi, çoxşaxəliliyi və eksperimenti özündə ehtiva edən sənət əsərləri yaratmışlar. Sənətləri estetik formada deyil, fəlsəfi axtarış səyi ilə inkişaf etdirilmişdir.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**


1. Leyla Qəmsizin rəngkarlıq əsərlərində qadın obrazı // "Sivilizasiya" Bakı Avrasiya Universiteti. № 6, Bakı, 2015 – s. 208-212.
2. Şükriyyə Dikmənin yaradıcılığında portret // "Mədəniyyət dünyası" Azərbaycan Dövlət Mədəniyyət İncəsənət Universiteti. XXX – Bakı, 2015 – s. 137-141.
3. Ərən Əyyuboğlunun rəsm əsərlərində mədəni mirasın izləri // "Mədəniyyət dünyası". Azərbaycan Dövlət Mədəniyyət İncəsənət Universiteti. XXXI – Bakı, 2016 – s. 144-148.
4. The Approaches Of Female Artısts To Social Problems In The 1980s // Paradigmata poznani. № 1. Prague, 2019 – p. 72-74.
5. The Use Of Fabric And Sewıng Techniques As Art Materials In The Works Of Gozde Ilkın and Gunesh Terkol // Ministry of Education and Science of Ukraine Drohobych Ivan Franko State Pedagogical University Young Scientists Council. Science Current Issue 43,volume 1– Drohobych-Ukraine – 2021 – p. 92-96.
6. Tomur Atagöyün rəsm əsərlərində ana ilahə obrazı və qadın şəxsiyyətinin izahı // Axtarışlar. cild 16. № 1 (42). Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi İncəsənət Dil və Ədəbiyyat İnstitutu. Naxçıvan, 2022, – s. 228-232.
7. Sanatın Tarihe Açılan Penceresinden Bir Portre: Mihri Müşfik // "Halide Edip Adıvar'ın ölümünün 50 yıldönümü anısına uluslararası medeniyyet ve kadın konqresi". 20-22 ekim 2014, Muğla – s. 829-843.
8. Canan Beykal'da Fotoğrafın Sanat Malzemesi Olarak Kullanılması // Gazi Sanat ve Tasarım Fakültesi 2. Uluslararası Sanat Sempozyumu. 5-7 kasım 2015, Ankara. s. 377-384.
9. Göç ve Kültürel Kimlik Kavramının Gülsün Karamustafa Resimlerindeki Yansımaları // "Neoliberal Söylem ve Toplumsal Cinsiyet Eşitliği". 5 Uluslararası Kadın ve

Toplumsal Cinsiyet Araştırmaları Konferansı. Gazimağusa, Kuzey Kıbrıs. 25-27 mart 2015. Vol. 1 – s. 305-315.

10. Стамбульские картины Наили Ахынчы // «Научные исследования в сфере гуманитарных наук: открытия XXI века». V Международная практическая конференция. 18-19 мая 2017, Пятигорск. с. 167-171.

Dissertasiyanın müdafiəsi 26 dekabr 2023-cü il tarixində saat 11.00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Dövlət Rəssamlıq Akademiyası AZ 1029, Baki şəhəri, Heydər Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının www.adra.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 22 noyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01.11.2023

Kağızın formatı: A5

Həcm: 38885

Tiraj: 100